# "AZƏRLOTEREYA" ASC
# İLLİK HESABAT
# 2007

Bakı - 2008

2007-cı İl ərzində ümumilikdə 207 ədəd müxtəlif avtomobillər uduş şəklində ödənilmişdir.

Bunlardan Daewoo Nexia - 190 ədəd, Mersedes - 3 ədəd, BMW - 2ədəd, KİA OPTİMA - 5 ədəd,

Toyota Prado - 2 ədəd və hərəsindən bir ədəd olmaqla Peugeot, Renault, Nissan Pathfinder,

Hunday Sonata və Nissan Sunny avtomobilləri olmuşdur.

2007-ci il ərzində keçirilmiş lotereyalar üzrə 11 dəfə ümumi məbləği 347 00
CekPot-lar udulmuş və ödənilmişdir.



0 manat olan
Qalib: Əkbərov Fəxrəddin Firuddin oğlu
Oyunun adı: “Binqo +” 191-cı tiraj
Uduş: Binqo priz 33 000 AZN



Qalib: Ərəbov Əkrəm
Oyunun adı: “5+1” 240-cı tiraj
Uduş: 25 400 manat




Qalib: Məmmədov Elçin Oqtay oğlu
Oyunun adı: “Binqo+” 167-ci tirajUduş:

Cek Pot 66 000 AZN

“Azərlotereya” ASC-nin 2007-cı il fəaliyyəti üzrə maliyyə göstəriciləri

2007-ci ildə “Azərlotereya” ASC-nin ümumi gəliri 32 625 163 manat təşkil etmişdir.

2007-ci ilin yekunu üzrə cəmiyyətin balans mənfəəti 1 387 379 manat təşkil etmişdir və balansmənfəətindən 22% hesabı ilə 305 223 manat büdcəyə mənfəət vergisi hesablanmışdır.

2007-ci ildə satışdan, gördüyü işlərdən və xidmətlərə görə 4 834 490 manat ƏDV hesablanmış, mal və xidmətlərə görə ödənilmiş ƏDV əvəzləşdirilib büdcəyə ödənilmişdir.

“Azərbaycan Respublikasının 2007-ci il dövlət büdcəsi haqqında” Azərbaycan Respublikasının Qanununun tətbiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin 22 dekabr 2006-ci il tarixli fərmanına müvafiq olaraq “Azərlotereya” ASC tərəfindən 2007-ci ildə dividendlər üzrə dövlət büdcəsinə 300 000 manat vəsait ödənilmiş və bununla da büdcə qarşısında öhdəlik yerinə yetirilmişdir.

2007-ci ildə “Azərlotereya” ASC tərəfindən büdcə və büdcədən kənar fondlar üzrə ödənilmiş məbləğ 4 522 474 manat təşkil etmişdir, o cümlədən:

| | |
|---|---|
| Dividentlər üzrə dövlət büdcəsinə ödəmə | 300 000 AZN |
| ƏDV | 3 586 895 AZN |
| Mənfəət vergisi | 566 477 AZN |
| DSMF | 44 795 AZN |
| Əmək haqqından tutulan gəlir vergisi | 24 307 AZN |

“Azərlotereya” ASC-nin 2007-ci il üzrə illik balansının və maliyyə göstəricilərinin dürüstlüyünə Azərbaycan Respublikası Auditorlar Palatasının 11.02.2005-ci il tarixli AT 022 saylı lisensiyasına əsasən fəaliyyət göstərən “Kaspian Konsalting” audutor şirkətinin auditoru tərəfindən rəy verilmişdir

"Azərlotereya" ASC-nin 01 yanvar 2008-ci il tarixinə maliyyə-iqtisadi göstəriciləri.

| Aktivlər | Hesabat dövrünün sonuna, manatla |
|---|---|
| 1.1. Əsas vəsaitlər | 33 382,63 |
| 1.2. Qeyri-maddi aktivlər | 35 455,02 |
| 1.3. Ehtiyatlar | 48 306,69 |
| 1.4. Debitor borcları | 467 903,24 |
| 1.5. Pul vəsaitləri | 2 746 460,68 |
| 1.6. Səhmlər və paylar üzrə maliyyə qoyuluşları | |
| 1.7. Dövlət qiymətli kağızları | |
| 1.8. Kapitallaşdırma | |
| 1.9. Gələcək dövr. xərcləri | 59 207,34 |
| 1.10. Digər aktivlər | 1 337 165,63 |
| Cəmi aktivlər | 4 727 766,94 |

| Kapital və ehtiyatlar | Hesabat dövrünün sonuna, manatla |
|---|---|
| 2.1. Nizamnamə fondu | |
| 2.2. Mənfəət | 1 387 379,06 |
| 2.3. Bölüşdürülməmiş mənfəət | |
| 2.4. Kreditorlar borcları | 3 339 943,22 |
| 2.5. Gələcək dövrün gəlirləri | |
| 2.6. Digər öhdəliklər | 444,66 |
| Cəmi passivlər | 4 727 766,94 |

Auditor rəyi.

# AUDİTOR RƏYİ
# AUDITOR OPINION

SERİYA AT №-15306

**«Azerlotereya» Açıq Səhmdar Cəmiyyəti**
**Bakı şəhəri, Bül-bül prospekti 1/9**

Mən, 11 fevral 2005-ci il AT 022 saylı lisenziyalı «Kaspian Konsaltinq» auditor şirkətinin auditoru Soltanov Ayaz Üzeyir oğlu 16 yanvar 2008-ci il tarixli, AP 028622 nömrəli müqaviləyə əsasən «Azerlotereya» Açıq Səhmdar Cəmiyyətinin 01 yanvar 2007-ci il tarixdən 01 yanvar 2008-ci il tarixədək maliyyə-təsərrüfat fəaliyyətini əks etdirən rəyə əlavə edilən maliyyə hesabatlarının audit yoxlamasını aparmışam.

Yoxlama 03 mart 2008-ci ildə başlanıb
13 mart 2008-ci ildə başa çatdı.

Audit yoxlamasına təqdim edilmiş sənədlərin düzgünlüyünə sifarişçi-təsərrüfat obyektinin rəhbərliyi məsuliyyət daşıyır.

Mənim vəzifəm həmin sənədlərə əsasən aparılmış yoxlama nəticəsində sifarişçinin maliyyə vəziyyətinə, maliyyə-təsərrüfat əməliyyatlarının qanuniliyinə, illik mühasibat hesabatları maddələrinin doğruluğuna, mühasibat uçotunun ümumi vəziyyətinə qiymət verməkdir və mən yalnız bu rəydə əks olunmuş mülahizələrimə görə məsuliyyət daşıyıram.

Mülahizələri düzgün formalaşdırmaq üçün kifayət qədər auditor sübutlarının toplanması məqsədilə mən qüvvədə olan audit standartlarının tələblərinə uyğun olaraq auditi tamamlaşdırmış və audit prosedurlarını yerinə yetirmişəm.

Audit zamanı təqdim olunmuş sənədlərdə əsas kimi götürülmüş təsdiqedici materiallar yoxlanılmış, habelə sifarişçi-təsərrüfat subyektinin tətbiq etdiyi uçot prinsipləri qiymətləndirilmişdir.

Hesab edirəm ki, yerinə yetirilmiş audit prosedurları nəticəsində rəy vermək üçün kifayət qədər auditor sübutu toplamışam.

Qulluq borcumla əlaqədar apardığım yoxlama ilə müəyyənləşdirilmişdir ki, mühasibat uçotu və illik balans qanuni göstərişlərə və nizamnamənin müddəalarına uyğundur. Lazımi mühasibat uçotu baxımından illik balans hüquqi şəxsin əmlak, maliyyə vəziyyətinin və gəlirliyinin faktik münasibətlərə uyğun olan mənzərəsini yaradır.

Rəy 14 mart 2008-ci ildə eyni qüvvəyə malik iki nüsxədə tərtib edilmişdir. Bunlardan biri sifarişçi-təsərrüfat subyektində, ikincisi isə auditor təşkilatında saxlanılır.

Bakı ş., C. Cabbarlı, 44

«Kaspian Konsaltinq» şirkətinin direktoru

Quliyev N. R.

Auditor
Soltanov A.Ü.